Abbaslıyam hey dözərəm,
Gələn günü xoş görərəm.
Həm şadlanıb, həm gülərəm,
Sənsən mənim şirin canım.

## 20 YANVAR

İyrimi yanvar gecəsi,
Yurdumuzun dəhşətlisi.
Qarbaçovlar Ransalar,
Yurdumuzda qan gölünü yaratdılar.

Torpaq deyib nərə çəkən,
Vətən deyib haray salan.
Gənclərimi susdurdular
Yurdumuzda qan gölünü yaratdılar.

Şəhid oldu balalarım,
Ağlar qaldı analarım.
Gözü yaşlı atalarım,
Öz yurdunda qan gölünü yaratdılar.

Əsir düşdü körpələrim,
Cavanlarım, qocalarım.
Gəlinlərim, bacılarım,
Öz yurdunda qan gölünü yaratdılar.

Çörəyimi yeyən dostum,
Torpağımda gəzən dostum.
Torpağıma yağı oldu,
Çörəyimə bais olda.

Ayrılıq ölümdən betərdir, betər
Gəl son qoy hicrana, bu qədər yetər
Bizim də sevgimiz vüsalla bitər
Getmə, ay sevgilim, getmə, amandır
Ayrılıq bilirsən, necə yamandır?

Ayrılıq insanı qocaldır, qırır
Sevgini sədaqət ucaldır, qurur
Abbaslı qarşında diz çöküb durur
Getmə, ay sevgilim, getmə, amandır
Ayrılıq bilirsən, necə yamandır?

## ŞƏHİDLƏR

Vətən yanığsıyla yurd sevgisiylə
Vətənə azadlıq verdilər onlar
Torpağa and içib, öz sinəsiylə
Düşmən qarşısında sipər qurdular.

Şəhidlik ölümün ən pak zirvəsi
Çətindir oranın fəth edilməsi
Şəhidlər tarixin şanlı səhifəsi
Bu şanlı səhifəyə möhür vurdular.

Vətən qürur duyur şəhidləriylə
Öz oğul-qızının bu hünəriylə
Vətənin uğrunda yalın əl ilə
Silahlı düşmənə qalib gəldilər.